UOT 94 "19/..."

# AZƏRBAYCANDA SOSİAL TƏBƏQƏLƏR (J.B.TAVERNYENİN "SƏYAHƏTNAMƏ"Sİ ÜZRƏ)

**Ə.H.HƏSƏNOV**
***Bakı Dövlət Universiteti***
***Arshad-hasanov @ rambler. ru***

*Məqalədə XVII əsrin 30-60-cı illərində dəfələrlə Azərbaycanda olmuş fransiz taciri J.B.Tavernyenin "Səyahətnamə"sində Azərbaycandakı sosial təbəqələr və onların statusları haqqında verdiyi məlumatlar tədqiq olunur. J.B.Tavernye Səfəvi dövlətinin əhalisini üç qrupa: əyanlar, qələm əhli və asılı təbəqəyə bölmüşdür. Hər üç təbəqəyə aid sosial qruplar haqqında səyyahın məlumatları təhlil olunmuş, onların statusu müəyyən edilmişdir.*

**Açar sözlər:** J.B.Tavernye, Səfəvi, mustovfi, sədr, rəiyyət.

Səfəvilər dövründə Azərbaycanda sosial münasibətlərin öyrənilməsi olduqca mürəkkəb və mühüm problemlərdən biridir. Əhalinin sosial-silki tərkibi, ayrı-ayrı təbəqələr arasında hüquqi münasibətlər və s. kimi geniş spektri əhatə edən sosial münasibətlərin araşdırılması cəmiyyətin sosial-iqtisadi inkişafının müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyətə malikdir.

Səfəvilər dövlətində sosial münasibətlər tarixinin öyrənilməsi üçün mühüm əhəmiyyət kəsb edən qaynaqların bir qismini memuar xarakterli qaynaqlar – səyyah gündəlikləri təşkil edir. Bu baxımdan fransız səyyahı J.B.Tavernyenin «Səyahətnamə»si də böyük maraq doğurur. XVII əsrin 30-60-cı illərində dəfələrlə Azərbaycanda səfərdə olmuş Tavernye Səfəvi dövlətində əhalinin sosial tərkibi haqqında maraqlı məlumatlar vermişdir. Lakin Tavernyenin Səfəvi dövləti əhalisinin sosial tərkibi haqqında verdiyi məlumatlar təzadlı xarakter daşıyır. Tavernye Səfəvi dövləti əhalisinin sosial tərkibini Avropa dövlətlərində olduğu kimi üç təbəqəyə bölərək yazır: "Onlardan birincisi şəmşir əhlidir ki, bura səltənət sarayının üzvləri olan əşrəflər-kübarlar, xanlar, vilayət hakimləri və bütün qoşun əhli, ikinci təbəqə qazılar və qanun yazan qələm əhli, üçüncü təbəqə isə Avropa ölkələrində olduğu kimi tacirlər, sənətkarlar və zəhmətkeşlərdən ibarətdir" (8, 571). Tavernye Səfəvi dövləti əhalisini Avropa ölkələrində mövcud olan üç silkə (zadəganlar, ruhanilər, vergi verən əhali) uyğun olaraq qruplaşdırmış, hər üç təbəqəyə daxil olanlar, xüsusilə də birinci və ikinci təbəqə haqqında arayış

xarakterli məlumat vermişdir. Səyyahın fikrincə, şəmşir əhli kateqoriyasına baş vəzir, nazir, mehtər, miraxurbaşı, mirşikarbaşı, zindarbaşı (yəhər və yaraqların mühafizəçisi), zənkənqorçu (şah mehtərlərinin-"cilovdarların" rəisi), vaqiyənəvis, xəzinədarbaşı, eşikağasıbaşı, mehmandarbaşı, həkimbaşı, münəccimbaşı, divanbəyi, darğa, süfrəçibaşı, şərabçıbaşı, qəhvəçibaşı, məşəlçibaşı, xassetəraş, qapıçıbaşı, məlik-tüccar, mirşəb, nəqqaşbaşı, nəccarbaşı, anbardarbaşı, sipəhsalar, qullarağası, tüfəngçibaşı, eşikağası, topçubaşı, vilayət hakimləri - xanlar, sultanlar və asəflər daxildir (8, 572-587). Tavernye Səfəvi dövlətinin əhalisinin ikinci təbəqəsinə dövlət kargüzarlarını, bütün qələm əhli və elm sahiblərini daxil etmiş və bu kateqoriyaya məxsus mənsəb sahibləri içərisində sədrolxas, sədrolmoqufat, şeyxülislam, qazı, pişnamaz, mütəvəlli, mustoufi əlməmalik, mustoufilər, dəftərxana darğasının adlarını çəkmişdir (8, 588-595). Səyyah ilk iki təbəqəyə daxil olan mənsəb sahiblərinin hər biri haqqında qısa da olsa məlumat versə də, üçüncü təbəqəyə daxil olan sənətkar, tacir və zəhmətkeşlər, xüsusilə də kəndli kateqoriyaları haqqında heç bir bilgi verməmişdir. Qeyd edək ki, Tavernyenin Səfəvi dövləti əhalisinin sosial tərkibi haqqında verdiyi məlumatlar Şərq ölkələrində sosial təbəqələri tam əks etdirmir.

Tarixşünaslıqda qəbul olunmuş konsepsiyaya görə, Səfəvilər dövründə sosial tərkibinə görə əhali iki kateqoriyadan - imtiyazlı təbəqə və asılı təbəqədən ibarət olmuşdur. Səfəvi dövrü tarixçilərinin fikrincə, imtiyazlı təbəqəni təşkil edən hakim təbəqə dörd kateqoriyadan ibarət olmuşdur:

1) Qızılbaş və digər tayfalara, həmçinin şah qvardiyasına (qulamlara) məxsus hərbi əyanlar;

2) xüsusi mülkiyyət hüququ əsasında geniş torpaq sahələrinə malik olan və vəqf əmlakını idarə edən ali ruhanilər;

3) mərkəzi və yerli idarə aparatının mülki bürokratiyası;

4) yerli oturaq əyanlar (6, 89; 7, 137).

Araşdırmalar göstərir ki, Səfəvi dövlətində ordunun sıravi üzvləri, ruhanilərin aşağı təbəqəsi, elm adamları, xüsusilə də müddərislər heç də Tavernyenin qeyd etdiyi kimi, imtiyazlı təbəqəyə daxil olmamışlar.

J.B.Tavernyenin birinci kateqoriyaya aid etdiyi təbəqə içərisində şah və hakim sülalə ən yüksək yerdə durur. Belə ki, şah qeyri-məhdud hakimiyyətə malik idi. O, bütün təbəələrinin canının və malının sahibi idi. Səyyah yazır: «Əgər şah ölkənin ən böyük dövlət adamlarından birini öldürmək istəsə, heç bir qanun-qayda və məsləhət gözləmədən bu işi görə bilər və dövlətin qanun keşikçilərinin bunu yoxlamağa, heç kimin bunun səbəbini soruşmağa cəsarəti çatmazdı» (8, 569).

Səfəvi dövlətinin həm mərkəzi idarəetmə aparatında, həm də yerli idarəçilik orqanlarında yalnız birinci iki təbəqə – Şəmşir və qələm əhli təmsil olunmuşdu. Tavernye Səfəvi əhalisinin sosial strukturunda şahdan sonra baş vəziri qeyd etmişdir. O, şahdan sonra ölkənin birinci şəxsinin «etimadəddövlə» adlandırıldığını yazmışdır (8, 572). Səyyahın fikrincə «etimadəddövlə»

qələm əhli olub bütün mülki və maliyyə məsələlərinə baxırdı (8, 572). Tavernyenin verdiyi bu məlumatlar göstərir ki, XVI əsrlə müqayisədə baş vəzir mənsəbi böyük təkamül prosesi keçərək XVII əsrdə şahdan sonra birinci səlahiyyət sahibinə çevrilmişdi.

Tavernyeyə görə, Azərbaycan əhalisinin sosial strukturunda mehtər özünəməxsus yer tuturdu. Bu elə bir vəzifədir ki, bu işə sarayın ağdərili xadimlərindən biri təyin edilir və o, şahın gizli güdükçüsü olduğu üçün həmişə onun yanında olurdu... Mehtərlər şahın eşidən qulağı idi (8, 573). Birinci təbəqəyə aid olan mirşikarbaşı haqqında Tavernye yazır ki, bütün şikar, ov alət və vasitələri onun nəzarəti altındadır. Quşçubaşı vəzifəsini də icra edən mirşikarbaşının ixtiyarında min nəfərdən artıq qulluqçu vardır və çoxlu ov quşları da xüsusi fərmanla onun nəzarəti altına verilmişdir (8, 575). Ov itləri, şirlər və pələnglərə görə məsuliyyət daşıyan səkbanbaşının da mirşikarbaşıya tabe olduğunu qeyd etmişdir (8, 575).

Səfəvi dövlətində birinci təbəqəyə aid olan xəzinədarbaşı dövlət xəzinəsində olan pulların qorunub saxlanmasına cavabdeh idi (8, 576). Eşikağasıbaşını (təşrifat və mərasim qaydalarına baxan məmur – Ə.H.) birinci təbəqəyə aid edən Tavernye onu Fransanın böyük təşriflər rəisinə bərabər tutmuş və bir neçə vəzifəli məmurun onun tabeçiliyində olduğunu göstərmişdir (8, 576). Sarayın mehmandarbaşısı birinci təbəqəyə daxil olub xaricdən gəlmiş səfirləri müşayiət etmək, onlara qəbul qaydalarını öyrətmək işlərinə baxırdı (8, 576). Tavernye yazır ki, həkimbaşı şahın birinci həkimidir, ölkənin bütün təbibləri ona tabedirlər və onun təsdiqi olmadan həkimlik fəaliyyəti ilə məşğul ola bilməzlər (8, 576; 1, 443). Şah sarayında əhəmiyyətli vəzifələrdən birinin münəccimbaşı olduğunu vurğulayan səyyah onu münəccimlərin rəisi adlandırmış və şahın onların göstərişlərinə uyğun olaraq şahlıq etdiyini bildirmişdir (8, 576). Tavernye imtiyazlı təbəqələrdən olan süfrəçibaşı, şahın meyxanasına və şərablara nəzarət edən şərabçıbaşı və ya şirəçibaşı, sarayın işıqlandırılmasına baxan məşəlçibaşı, şahın müşk arağı, bitki gülabı, qəhvə və s. içkilərinin təşkilinə məsul olan qəhvəçibaşı, həmçinin şahın şəxsi dəllək və cərrahı olub onun başını qırxan və ondan qan alan xassetəraş (şahın şəxsi bərbəri – Ə.H.) və s. vəzifə sahibləri haqqında da maraqlı məlumatlar vermişdir.

Səfəvi dövründə hər bir qızılbaş tayfasının başçısı həmin tayfanın əmir əl-ümərası olmaqla yanaşı, həm də şəmşir əhli idi. O, müharibə dövründə müəyyən olunmuş miqdarda qoşunla şahın sərəncamına gəlirdi. Tavernye qeyd edir ki, müharibə zamanı sipəhsalar və yaxud «əmr əl-üməra külli Səfəvi» vəzifəsi təsis edilir və müharibə başa çatan kimi bu mənsəb də ləğv edilirdi. Sipəhsalar dövlət şura məclisində etimadəddövlədən sonrakı mövqedə qərarlaşırdı (8, 581).

Ə.Rəhmani Səfəvi dövlətinin bəylərbəyliklərə bölündüyünü və Azərbaycan ərazisində 4 bəylərbəyliyinin yerləşdiyini qeyd etmişdir (7, 90-93). İ.P.Petruşevskinin yazdığına əsasən hər vilayətdə (bəylərbəylikdə) bəylərbəyilər, şeyx-ül islam, qazı, sədr, canişin (bəylərbəyinin müavini), vilayət vəziri,

şəhərlərdə kələntər fəaliyyət göstərirdi. Bəylərbəylərin sarayında bütün vəzifələr-süfrəçibaşı, şərbətçibaşı, şərabçıbaşı, halvaçıbaşı, əmir-axur, mirşikarbaşı, quşçubaşı və s. mərkəzi sarayda olduğu kimi mövcud idi (6, 118-119).

Səfəvilər dövlətində vilayətləri şahzadələr, qızılbaş əyanları və bəzən də qulamlar içərisindən seçilib, təyin olunan nümayəndələr idarə edirdilər. Vilayətlərə birinci təbəqəyə aid olanlardan xan, sultan titulu, əmir əl-ümarə və yaxud bəylərbəyi rütbəsi ilə hakimlər təyin olunurdular. Tavernye də böyük əyalətlərin xan və hakimlər tərəfindən idarə olunduğunu yazmışdır (8, 585).

Tavernye vilayət hakimi və xanların kiçik bir şah kimi qüdrətli olduğunu, vilayət ərazisində mütləq hakimiyyətə malik olduqlarını qeyd etmişdir. Əyalətlərin xan və hakimləri şah kimi qüdrətli idi və camaat ondan şahdan qorxduğu qədər qorxardı. Lakin onlar əhaliyə qeyri-adi zülm edəndə camaat şikayət səslərini ucaldardısa və şikayət şahın qulağına çatardısa, hakimin başı bədənindən ayrılırdı (8, 585).

Bəylərbəyliklər və ya vilayətlər inzibati baxımdan nisbətən kiçik ərazi vahidi olan mahallara bölünürdülər. XVI əsrin 40-cı illərindən etibarən mahal hakimlərinə əsasən sultan, bəy, çox nadir hallarda isə xan titulu verilirdi. Mahal hakimləri vəzifəyə şahın fərmanı əsasında təyin edilir və işdən azad olunurdular (4, 164-165). Digər bir fikrə görə bəylərbəylərinə tabe olan mahal hakimləri qolbəyi adlanırdı və onlar vəzifəyə bəylərbəyinin təqdimatı əsasında şah fərmanı ilə təyin edilirdilər. Sultan titulu daşıyan şəxslər daha xırda inzibati vahidlərə rəhbərlik edirdilər (7, 90). Qeyd edək ki, Tavernyenin məlumatları bu fikirləri təsdiq etmir. Səyyahın yazdığına görə, xandan sonra da hakimlər qismi vardır ki, onlar xana tabedirlər. Ancaq onlar şah tərəfindən təyin edilir və yalnız şahın əmri ilə vəzifədən azad olunurlar. Bu hakimlər silkinə sultan deyirlər (8, 586). Tavernye Səfəvi dövlətinin əyalət idarəçiliyində üçüncü dərəcəli hakimlərin də olduğunu və onların asəf (ağıllı müşavir) adlandıqlarını qeyd etmişdir (8, 586). Səyyahın məlumatına əsasən asəflər hökmdarın vilayətlərdə naibləridir və hər əyalətin xanı kimi onların da qulluqçuları və sahibmənsəbləri vardır.

Səfəvi dövlətinin sosial strukturunda yüksək rütbəli məmurlardan olan vaqiyənəvisin də özünəməxsus yeri olmuşdur. Vaqiyənəvisin hüquq və səlahiyyətləri haqqında məlumat verən Tavernye yazırdı ki, o dövlətin ən böyük yazıçısı və katibidir (münşisidir). Bu fövqəladə vəzifə yalnız şaha çox yaxın olan şəxslərə verilir. Bu şəxs ali məclisdə bütün ərizə və dövlət sənədlərini şahın hüzurunda oxuyurdu (8, 575). Hökmdarın şəxsi katibi olan vaqiyənəvis ali məclisin iclaslarının qeydiyyatını aparmaqla yanaşı, şahın vilayət hakimlərinə və xarici ölkələrə ünvanlanmış məktublarını yazır və arxivə də nəzarət edirdi. Qeyd edək ki, vaqiyə-əvislə bərabər Səfəvi dövlətində təxminən eyni funksiyanı icra edən münşi əl-məmalik mənsəbi də mövcud idi (2, 218). Kargüzarlıq işlərinə, mirzələrin fəaliyyətinə rəhbərlik və nəzarət edən münşi əl-məmaliklə vaqiyənəvisin səlahiyyətləri arasında ciddi bir fərq olmamışdır (3, 134; 5, 273).

Tavernye Səfəvi dövlətinin sosial strukturunda yeri olan mərkəzi maliyyə idarəsinin başçısı mustoufi əl-məmalik və onun səlahiyyətləri haqqında da maraqlı məlumatlar vermişdir. Səfəvi imperatorluğunun maliyyə işləri baş vəzirin ümumi nəzarəti və mustoufi əl-məmalikin rəhbərliyi altında fəaliyyət göstərən maliyyə divanında həyata keçirilirdi. Tavernyenin yazdığına əsasən, mühasibat divanının çoxsaylı icraçı məmurlarının hamısı qələm əhlidir. Bütün qeydiyyat dəftərləri onların əlindədir. “Mustoufi əl-məmalik və mustoufilər bütün xalisə, ərbabi əmlakının mühasibat işi üzrə dəftərdarlıqda ən yüksək məqamlı məsul işçilərdir. Şahın bütün gəlirinin hesabını, əmlakın icarəsi, sursat anbarları, qoşunun təchizatı, idarə məmurlarının xərclərini onlar qeydiyyata alırlar. Başqa bir növ mühasib də vardır ki, ona «moquf» deyirlər və o vəqf əmlakının hesabını aparır” (8, 593).

Səfəvi dövlətinin dini idarələrində çalışanları qələm əhli və elm-bilik sahibləri hesab edən səyyah onları Fransadakı hüquqşünas, ədliyyə məmurları və maliyyə idarələrinin işçiləri ilə eyniləşdirmişdir. Tavernye Səfəvi dövlətində mərkəzi dini idarəyə sədrin rəhbərlik etdiyini qeyd edərək yazır ki, sədr ölkədə birinci dini şəxsdir, lakin şura məclisində və s. rəsmi məclislərdə etimadəddövlənin tabeliyindədir (8, 588). Dini sahədə ali hakimiyyətə malik olan sədr dünyəvi məsələlərdə baş vəzirin tabeliyində olub, vəzifə və sosial təbəqə statusunu dəyişərək etimadəddövlə vəzifəsinə yüksələ bilərdi (8, 588). Tavernye yazır ki, şəriət və qanunlar rəisi olan sədr məscidlərin vəqf əmlakına və s. işlərə baxır. Onların bütün gəlirlərini toplayıb vəqfin müəyyən məsrəflərinə, özünün lazım bildiyi yerlərə xərcləyir. Ancaq o bütün başqa xərclərdən əvvəl öz haqqını götürürdü (8, 588). Dövlət məmurlarının sədrin işlərinə müdaxiləsi qeyri-mümkün sayılırdı və onun verdiyi hökmlər digər məhkəmə orqanları tərəfindən sözsüz qəbul edilirdi. Divan əs-sədarədə iki sədr fəaliyyət göstərsə də, ali ruhani idarəsinin başçısı sədr-i xassə hesab olunur, sədri əl-məmalik isə onun müavini və ürfi-şəri məhkəmələrin rəisi sayılırdı (4, 208).

Tavernyenin məlumatına görə, rütbə, məram və səlahiyyəti üzrə bərabər olan iki böyük din xadimi – şeyx-ül islam və qazı da sədrə tabe olub, qələm əhli və elm-bilik sahibləridirlər. Səyyah yazır ki, şəriət işləri bu iki nəfər arasında bölüşdürülür və sədr bütün işləri onların vasitəsilə həyata keçirir. Məmləkətin bütün ərazilərində din və qanun işlərinin icrasına baxan şeyx-ül islam və qazı vəzifəyə şahın fərmanı əsasında təyin olunurdular (8, 589). Səyyahın yazdığına görə hər məsciddə «pişnamaz» var idi. O, hamıdan birinci namaza dayanmalı və camaat onu izləyərək namaz qılmalı idi. Mollaların məscid vəqflərindən çoxlu məvacib aldıqlarını yazan səyyah onların hər cümə günləri məscidə gəlib quran oxuduqlarını, quranı qiraət edənlərə təfsir etdiklərini bildirmişdir. Tavernyenin məlumatına əsasən, onların vəzifələrindən biri də şəriət elmlərinin tədrisidir ki, hər kəs oxumaq istəsə, ona təlim verməlidirlər. Ağır hərəkətə, ciddi rəftara və qaşqabaqlı sifətə malik olan mollaları Tavernye ikiüzlü və yalançı adamlar kimi xarakterizə etmişdir (8, 589). Səyyah hər

məsciddə pişnamaz və molla ilə yanaşı müəzzin və mütəvəllinin olması haqqında da məlumat vermiş və onları da qələm əhli kataqoriyasına aid etmişdir.

Səyyahın verdiyi məlumata görə ədliyyə məsələləri üzrə nazir vəzifəsini icra edən məmur divanbəyi adlanırdı və ikinci təbəqəyə daxil idi. Bütün hüquqi qanunlar və cəzalar onun əli ilə icra olunurdu. Onun qərargahı alaqapı və ya şahın evidir. Şah da çox vaxt onun divanında iştirak edirdi. Bu vəzifə ən mühüm vəzifə idi. Ölkənin bütün şikayətləri ona göndərilir və onun hökmləri məmləkətin bütün böyükləri, vilayət xanları və hakimləri tərəfindən icra olunurdu (8, 12-13).

Səfəvi dövlətində polis rəisi funksiyasını icra edən darğanı imtiyazlı təbəqəyə aid edən Tavernye yazır ki, çox mötəbər vəzifə olan darğanın fitvasına qarşı yalnız divanbəyi şikayət edə bilərdi (8, 576). Darğa nizam-intizam yaratmaq, oğurluğun, qətl və qarətin qarşısını almaq, fahişəxanaları, qumarxanaları, meyxanaları aşkara çıxararaq onlara qadağa qoyurdu. Darğa günahkarları və müqəssirləri ya çubuq vurmaq, ya da cərimə almaq yolu ilə cəzalandırırdı (8, 576).

Tavernyenin Avropa ölkələri nümunəsinə uyğun olaraq ayırdığı üçüncü silk Səfəvi dövlətinin əhalisinin asılı təbəqəsini və yaxud vergi verən hissəsini təşkil edirdi. Maraqlıdır ki, səyyah Səfəvi əhalisinin üçüncü təbəqəsi içərisində ayrıca bir kateqoriya kimi kəndlilərin adını çəkməmiş, sənətkar və tacirlərlə bir sırada zəhmətkeş anlayışını işlətmişdir. Görünür, səyyah zəhmətkeşlər anlayışı altında məhz kəndliləri nəzərdə tutmuşdur. Bəhs edilən dövrdə Səfəvi əhalisinin asılı təbəqəsi içərisində kəndlilər mütləq əksəriyyət təşkil edirdilər. XVI-XVII əsrlərdə kəndlilərin hamısı rəiyyət anlayışı ilə ifadə olunurdular. İ.P.Petruşevski belə hesab edir ki, geniş mənada rəiyyət vergi verən bütün təbəqələri ehtiva etdiyi halda, dar mənada kəndlilər anlamını vermişdir (6, 248). XVI-XVII əsrlərdə də əhalinin böyük hissəsini təşkil edən kəndlilər üç kateqoriyadan ibarət olmuşdur: 1) Torpaq mülkiyyətinə malik olub xırdamalik adlanan varlı kəndlilər; 2) İri feodallardan asılı olmayan, yalnız dövlətə torpaq vergisi verən azad icmaçı kəndlilər; 3) İcarədar kəndlilər (7, 343-344). Kəndlilərin çox böyük hissəsini təşkil edən icarədar kəndlilər iqtisadi durumuna görə hampa, rəncbər, həmçinin Azərbaycanın müxtəlif bölgələrində qara, qərib, bekar, xoşnişin kimi adlarla tanınan kateqoriyalardan ibarət olmuşdur (7, 144). Tavernyenin Səfəvi dövlətində sosial təbəqələr haqqında verdiyi məlumatları yekunlaşdıraraq qeyd etmək olar ki, verilən bilgilər bəzən mübahisəli xarakter daşısa da, əsas məsələlərdə reallığı əks etdirir.

**ƏDƏBİYYAT**

1. Azərbaycan tarixi. Uzaq keçmişdən 1870-ci illərə qədər. Bakı: Azərbaycan, 1996, 869 s.
2. Azərbaycan tarixi: 7 cilddə, III c., Bakı: Elm, 1999, 784 s.
3. Bayramlı Z. Azərbaycan Səfəvi dövlətinin idarə quruluşunun bəzi məsələləri Tavernyenin səyahətnaməsində // Bakı Universitetinin xəbərləri. Humanitar elmlər seriyası, 2004, №1, s.131-144.
4. Bayramlı Z. Səfəvi dövlətinin quruluşu və idarə sistemi. Bakı: ADPU, 2006, 258 s.
5. Əfəndiyev O.A. Azərbaycan Səfəvilər dövləti. Bakı: Azərnəşr, 1993, 300 s.

6. Петрушевский И.П. Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI- нач. XIX вв. Л.: ЛГУ,1949, 382 с.
7. Рахмани А.А. Азербайджан в конце XVI и в XVII вв. (1590-1700 гг). Баку: Элм, 1981, 238 с.
8. Jan Battis Tavarnye. Səfərname-yi Tavarnye. Tərcomeyi-ye Əbuturab Nuri. İsfahan: «Çapxane-ye Pərvin», h.1336, 719 s.

## СОЦИАЛЬНЫЕ СЛОИ АЗЕРБАЙДЖАНА (ПО «ПУТЕШЕСТВИЮ» Ж.Б.ТАВЕРНЬЕ)

**А.Г.ГАСАНОВ**

### РЕЗЮМЕ

В статье исследуются социальные сословия Азербайджана XVII в. в сочинении «Путешествия» французского купца и путешественника Ж.Б.Тавернье. По наблюдениям Тавернье, общество в Азербайджане в рассматриваемый период состоит из трех основных групп: знати, писцов (мустофи ал-мамалук и др.) и подотного сословия.

Особое внимание привлекают материалы Тавернье о статусе, полномочиях и привилегиях правящих кругов, так как именно состоянию первых двух груп автор уделяет значительное внимание. В сочинении Тавернье очень мало место уделено представителям третьего сословия, особенно крестьянству, что видимо, было связано с особенностями пребывания и ограниченными в этом отношении возможностями самого иностранного «гостя».

**Ключевые слова:** Ж.Б.Тавернье, Сафави, мустофи, садр, раиййат

## "SOCIAL STRATA IN AZERBAIJAN (ON THE "VOYAGE" OF J.B.TAVERNYE)"

**A.H.HASANOV**

### SUMMARY

J.B.Tavernye classified the social strata existed in Saphavid state in the XVII century. The first stratum includes the king and the dynasty of authority. This group consists of nobles, khans and droops, the second stratum lawmakers and the last merchants, craftsmen and peasants like in Europe. The author provides detailed information about the division of strata in the article. Tavernye's information about the content and authority of the first stratum deserves interest. Tavernye provided detailed information about the craftsmen, but less about peasants.

**Key words:** J.B.Tavernye, Saphavids, mustophi, craftsman, peasants.